# Xəlqi ruh yaşadılır!..

(esse)




XV əsrin son illəri...

Səfəvilər döyüş-döyüş tarix yazır...

Dünya Səfəviləri tanımaqdadı...

Dünya Səfəvilərlə hesablaşmaqdadı...

Şah İsmayıl Xətainin qılıncı sıyrılanda səngər tanımayan qızılbaşlar düşmənlərini, düşmən bildiklərini, düşmənçiliyə meyillənənləri qılınca yalmandırır, qızılbaşların qılıncı boyunlar vurur, qollar üzür, gözlər tökür...

1499-cu il...

Döyüş başa çatıb. Dağların, sərt qayaların, mərd qayaların sinəsinin qanını silə-silə axan çayın qızartısı azalmaqdadı. Kimi göy otluğa dirsəklənib dincini alır, kimi kəhərini tumarlayır, kimi qılıncını ovxarlayır, kimi yaralı qızılbaşın yaralarını sarıyır...

Şah İsmayıl Xətai dikdirdə qaya misallı daşa mətərislənib. Atasını - Şeyx Heydəri xatırlayır. Bu xatırlamada kövrəklik də var, şükranlıq da. Qəlbində çözülməsi mümkün olmayan bir gizilti gəzişir. Baxışları göy üzünün göylüyünü qanadlarıyla sığallayan qartalın uçuşundan üzülmür...

Qızılbaşlara baxır. Ürəyindən lələk qələmlə torpaq üçün qılınc çalanların hünərini şeirləşdirmək keçir...

Ustaclı Məhəmməd Şah İsmayıla nəsə demək istəyir. Şahın üzülə-üzülə düzülən, düzülə-düzülə üzülən xəyallarının nizamını pozmağa qıymır. - Heydər oğlu İsmayıl, Şah İsmayıl Xətai olunca qılıncı qın tanımayan bu ünlü bəy xatırlayır ki, indi xəyallarıyla baş-başa qalan Şahın qılıncı bir-iki saat əvvəl düşmən sərkərdəsinin başını bədənindən üzmüşdü; Səfəvilərin sancağı yeri göyə dikəltmişdi. Bu zəfərin ovqatını yaşadığını düşünür...

Şah İsmayılın baxışları bayaqdan bəri göy üzündə qanad çalan qartaldan üzülür, Loğmanın getdiyi səmtə baxır. Ürəyinə nəsə damır. Tələsik yerişlə ora gedir...

Şah İsmayılın əli yaralı qızılbaşın çiyninə enir. Səssiz təbəssümünün sözü aydınlığıyla sezilir: "Mərhəba, qazi qardaşım!". Belə səssiz təbəssümü hamısı arzulayardı. Yaralı qızılbaşın da səssiz təbəssümünün səsi aydınlığıyla anlaşılır: "Canım məmləkətimizin sadağası olsun, şahım!". Minlərlə qızılbaşın and misallı harayı yeri-göyü silkələyir: "Canım məmləkətimizin sadağası olsun, şahım!"...

2017-ci ilin apreli...

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 2016-cı ilin aprel döyüşlərinin ildönümünə həsr olunmuş təntənəli tədbirdi. Müdafiə naziri general-polkovnik Zakir Həsənov döyüşlərdə fərqlənmiş bir qrup hərbi qulluqçunu, döyüşlərdə yaralanıb tərxis olunanları "Şücaətə görə" medalıyla təltif edir.



Baş leytenant Azər Məmmədov tədbirə əl arabasıyla gəlib. "Xahiş edirəm, əl arabasını salondan çıxardın" - deyir. "Oturmağa dözümüm çatar...". Çoxu bilmir ki, Azər bu arabadan son nəfəsinəcən istifadə edəcək; döyüşlərdə ağır yaralar alıb...

Bir azdan "Şücaətə görə" medalı təqdim ediləndə ayağa qalxa bilməyəcək. Onda salona üzücü sükut çökür. Və Müdafiə naziri ... özü salona enir. Aprel döyüşlərində şücaət göstərmiş zabitin yanına... Duyğusal məqamdı. Aprel döyüşlərində iştirak edənlərin, aprel döyüşlərinin ovqatını qürurla yaşadanların davamlı alqışları. Bu davamlı alqışlar ürəklərin dediklərinin səmimi tərcümanıdı: "Bu xalqa məğlubiyyət yoxdu!"...

Müdafiə naziri aprel döyüşlərində yaralanmış zabitə təşəkkür edir. 515 il əvvəl Şah İsmayıl Xətainin yaralı qızılbaşa dediklərini xatırlayıram: "Mərhəba, qazi qardaşım!". Təltif olunan baş leytenant təltifə görə minnətdarlığını bildirir. Yaralı qızılbaşın Şah İsmayıl Xətaiyə dediklərini xatırlayıram: "Canım məmləkətimizin sadağası olsun!.."

Yüz illər keçsə də, ruh həmin ruhdu. Var səsimlə haraylamaq istəyirəm: xəlqi ruh yaşadılır! Xəlqi ruha zaval yoxdu!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

Azərbaycan ordusu.-2017.-29 aprel.-S.2.